**Seçiciləri qeydə alan komissiya üzvlərinin funksiyaları:**
**(Maddə 65)**

- Seçicilərdən təqdim olunmasını tələb edin:
  - ✓ Gürcüstan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsi və yaxud Gürcüstan vətəndaşlığı passportu
  - ✓ Məcburi yerini dəyişmiş şəxs halında –Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi və yaxud Gürcüstan pasportu ilə birlikdə qaçqınlıq şəhadətnaməsini.
- Yoxlayın, seçici seçicilərin vahid və ya xüsusi siyahısına daxil edilmişdirmi və seçicinin şəxsi nömrəsini seçicilər siyahısında mövcud olan nömrə ilə müqayisə edin.
- Təqdim edilən sənəddə/sənədlərdə qeyd edilən seçicinin qeydiyyat məlumatlarını və seçici siyahısında olan məlumatların uyğunluğunu yoxlayın.
- Təqdim edilən sənəddə/sənədlərdə və seçici siyahısında olan fotoşəkilin və seçicinin surətinin bir-birilə uyğunluğunu yoxlayın.
- Əgər seçici seçicilər siyahısına daxil edilmişdirsə, seçicini markirovka edin.
- Seçki bülleteni (arxa tərəfində, onun üçün ayrılmış yerdə) qeydiyyatçının möhürü ilə təsdiq edin.
- Seçki bülletenin arxa tərəfində imza atın.
- Seçicilər siyahısında öz imzanızla seçki bülletenin verilməsini təsdiq edin.
- Seçicidən xahiş edin ki, seçicilər siyahısında öz soyadının qarşısında seçki bülleteninin təhvil almasını imzası ilə təsdiqləsin.
- Seçiciyə özünüzün imzaladığınız və qeydiyyatçının möhürü ilə təsdiq olunmuş bülleteni təqdim edin.
- Seçiciyə göstəriş verin ki, gizli səsvermə kabinəsinə daxil olsun.

**DİQQƏT!**

- Əgər seçici Gürcüstan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsi və yaxud Gürcüstan vətəndaşlığı passportunu, məcburi yerini dəyişmiş şəxs halında – Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi və yaxud Gürcüstan pasportu ilə birlikdə qaçqınlıq şəhadətnaməsini təqdim etməzsə ona bülleteni verməməlisiniz.
- Əgər seçici markirovkadan imtina edirsə, onun səsvermədə iştirak etmək hüququ yoxdur və ona seçki bülleteni verilməməlidir.
- Yuxarı ətraf orqanları olmadığına görə səsvermə prosedurunda müstəqil şəkildə (fiziki vəziyyəti) iştirak edə bilməyən seçici markirovka yoxlanışı və markirovka prosedurundan keçmir, ona seçki bülleteni verilərkən seçiciləri qeydə alan seçicilərin vahid siyahısında "Seçicinin imzası" qrafasında "Fiziki vəziyyət" adlı qeyd yazır və bunu şəxsi imzası ilə təsdiq edir.
- Əgər sizin və seçicinin seçki bülleteni korlanarsa, bu barədə dərhal komissiyanın sədrinə məlumat verin və seçiciyə yeni (sizin tərəfinizdən imzalanmış və qeydiyyatçının möhürü ilə təsdiqlənmiş) seçki bülleteni verin.

**NƏZƏRƏ ALIN!**

✓ Tövsiyə olunur ki, qeydiyyatçılar saat 10:00, 12:00, 15:00, 17:00 və 19:00-da səsvermə prosesinə mane olmadan, siyahılarda seçicilərin imzalarını və onlar tərəfindən verilmiş bülletenlərin miqdarını (sədrə təhvil verilmiş xarab olan bülletenlər nəzərə alınmaqla) saysınlar. Əgər göstəricilər arasında fərq aşkar edilərsə, qeydiyyatçı dərhal izahat yazmalıdır, bu isə səsvermənin yekun protokoluna əlavə olunmalıdır.

✓ Qeydiyyatçı funksiyasının başqasına verildiyi təqdirdə, qeydiyyatçı siyahılarda seçicilərin imzaları və onun tərəfindən verilmiş bülletenlərin miqdarını yenidən saymağa borcludur (sədrə təhvil verilmiş korlanmış bülletenlər daxil olmaqla) və nəticələri sədrə bildirir. Əgər göstəricilər arasında uyğunsuzluq aşkar olunarsa, qeydiyyatçı dərhal izahat yazmalıdır, həmin izahat səsvermə nəticələrinin yekun protokoluna əlavə olunmalıdır.